# “Bu yay Kul Ice qapağını aç, şansını tap”

# LOTEREYASININ KEÇİRİLMƏSİ QAYDALARI VƏ İŞTİRAK ŞƏRTLƏRİ

## 1. Ümumi müddəalar

1.1. Lotereyanın Təşkilatçısı “Carlsberg Azerbaijan” MMC-nin sifarişi ilə (sonradan – Sifarişçi) “C141” (Sİ 141) Məhdud Məsuliyyətli Cəmiyyətidir (yerləşdiyi ünvan: AZ1025, Bakı, Azərbaycan, Ələddin Quliyev küç. 1131, Babək Plaza, ofis B6-06) (sonradan – Lotereyanın Təşkilatçısı).

1.2. Lotereyanın adı və forması - “Bu yay Kul Ice qapağını aç, şansını tap” adlı tirajlı stimullaşdırıcı lotereya. (sonran mətndə - “Lotereya”).

1.3. Lotereyanın keçirildiyi ərazi – Azərbaycan Respublikası.

1.4. Lotereyanın keçirildiyi ümumi müddət – 15 iyun 2026-cı il tarixdən 31 avqust 2026-cı il tarixədək daxil olmaqla (sonradan mətndə - “Lotereyanın keçirildiyi dövr”).

1.5. Lotereyanın rəsmi qaydaları (sonradan – Qaydalar) www.kulice.az saytında (sonradan – Tətbiqin səhifəsi) qeyd olunacaq

## 2. Satışlarının stimullaşdırılması məqsədilə Lotereya obyektinin adları

2.1. Lotereya «Kul Ice®» ticarət nişanının məhsullarının satışı ilə əlaqədar keçirilir, (sonradan: “Lotereya obyekti”): **(yalnız qırmızı qapaqlı Kul ice lime və adi şüşədə olanlar)**

- Kul Ice Şüşə 0.5 L
- Kul Ice Laym Şüşə 0.5 L

## 3. Lotereyanın iştirakçısı olmaq üçün fiziki şəxsin riayət etməli olduğu şərtlər

3.1 15 iyun 2026-cı il Bakı vaxtı ilə saat 00:00-dan 31 avqust 2026-cı il Bakı vaxtı ilə saat 23:59-dək (sonradan mətndə – “Lotereyada iştirak üçün ərizələrin qəbulu dövrü”) Azərbaycan Respublikasının bütün marketlərindən lotereya müddəti ərzində ən az 1 ədəd lotereya obyektinə aid olan məhsullardan alış etməklə və lotereyanın şərtlərini yerinə yetirməklə Lotereyanın iştirakçısı olmaq olar. **(yalnız qırmızı qapaqlı Kul ice-lar)**

3.2 Lotereyada iştirak üçün alıcılar mütləq Kul Ice®» ticarət nişanının məhsullarının qapaqların altında yerləşən QR codu smartfon cihzalar vasitəsi ilə scan edərək və www.kulice.az saytında qeydiyatdan keçərək lotereya iştirakçısı ola bilər.

3.3 Lotereyada iştiraka Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında yaşayış icazəsi olan, lotoreya keçirildiyi dövrdə daim Azərbaycan Respublikasının ərazisində yaşayan və lotoreyanın keçirildiyi tarixə 18 (on səkkiz) yaşı tamam olmuş şəxslər (sonradan – Lotoreya İştirakçısı) buraxılır.

3.4 Lotereyanın iştirakçısı lotereya məhsulunu aldıqda hər aldığı məhsula görə bir lotereya nömrəsi əldə edir. Eyni zamanda Lotereya iştirakçısı öz adına bir neçə lotereya nömrəsi ala bilər.

3.5 Lotereya iştirakçısı lotereyada yalnız bir telefon nömrəsindən istifadə etməklə iştirak edə bilər. Lotereya iştirakçısının lotereyada iştirak üçün birdən artıq mobil telefon nömrəsindən istifadə etdiyi aşkar olunduqda, həmin iştirakçı lotereya çərçivəsində hər hansı hədiyyəni almaq hüququndan məhrum ediləcək.

3.6 Lotereyada iştirak etməklə Lotereyanın İştirakçısı bu Qaydalarla tanış olduğunu və tam razı olduğunu, həmçinin onların bütün şərtlərinə və tələblərinə əməl etməyi öhdəsinə götürdüyünü təsdiq edir.

## 4. Lotereyanın iştirakçısı olmaq və hədiyyə qazanmaq imkanını əldə etmək üçün 01 iyun 2026-cı il saat 00:00-dan 31 avqust 2026-cı il 23:59-dək (Bakı vaxtı ilə saat) aşağıdakı hərəkətləri etmək lazımdır:

4.1. Lotoreya müddəti ərzində, 15 iyun 2026-cı il saat 00:00-dan 31 avqust 2026-cı il 23:59-dək (Bakı vaxtı ilə saat), Azərbaycan Respublikası ərazisindəki istənilən marketdən lotereya məhsullarını almaq lazımdır.

4.2. www.kulice.az saytında qeydiyyatdan keçmək və hədiyyələri almaq üçün:

• Düzgün məlumatı qeyd etməklə Tədbiqdə qeydiyyatdan keçmək, yəni:

- adı, soyad, ata adı
- əlaqə telefon nömrəsi

4.3. Düzgün məlumat daxil etməklə saytda qeydiyyatdan keçmək. Lotoreya məhsulunun qapağında yerləşən QR kodu mobil cihaz vasitəsilə skan etmək.

4.4. Qeydiyyatdan sonra qapaqları lotoreya bitənədək saxlamaq tələb olunur. Lotoreya iştirakçısı hədiyyələri almaq üçün əldə etdiyi qapaq lotoreya müddəti başa çatana qədər saxlamalıdır. Uduş halında lotereya nömrəsi qapaqdakı İD nömrə ilə uyğun olmalıdır.

4.5. Lotereya iştirak kodu, Kulİce şüşə qablaşdırılmanın qapağında yerləşən QR kodun təqdim etdiyi iştirak nömrəsidi: Kod nümunəsi; AB12345678

**5. Hədiyyə fondunun tərkibi və həcmi**

Lotereyanın hədiyyə fondu Lotereyanın Sifarişcisinin pul vəsaitləri və əmlakı hesabına formalaşır və aşağıdakı hədiyyələrdən ibarətdir:

Hədiyyələr

Maldiv adalarında 2 nəfərlik istirahət – 3 ədəd
Sea Breeze hotelde 2 nəfərlik həftəsonu istirahəti – 13 ədəd
Kulİce 0,5L şüşə qablaşdırmada kaset (20 ədəd) pivə - 460 kaset

Hədiyyələrin pulla dəyəri ödənilmir. Lotoreya zamanı iştirakçının lotoreya şərtinin 3.1, 3.3, 3.5, 4, 7.2 yerinə yetirmədiyi hallar müəyyən olunarsa, hədiyyədən məhrum olunacaqdır.

**6. Hədiyyə fondunun oynanılmasının keçirilməsi qaydası, o cümlədən Lotereyanın qaliblərinin müəyyən edilməsi qaydası və məlumatlandırma üsulu:**

(iştirakçı bir unikal kodla hər üç tirajda iştirak haqqı qazanır)

6.1. Gündəlik Tiraj
6.1.1. Gündəlik tirajda iştirak üçün qeydiyyatlar hər gün saat 00:00-dan 23:59-dək qəbul olunur.
6.1.2. Həmin gün ərzində qeydiyyatdan keçmiş iştirakçılar növbəti gün saat 15:00-da keçiriləcək tirajda iştirak edirlər.
6.1.3. Hər gündəlik tiraj üzrə 5 qalib müəyyən edilir.

6.2. Həftəlik Tiraj
6.2.1. Həftəlik tirajda iştirak üçün qeydiyyatlar hər həftənin 1-ci günü saat 00:00-dan bazar günü saat 23:59-dək qəbul olunur.
6.2.2. Həftəlik tiraj hər həftənin 1-ci günü saat 15:00-da canlı yayım vasitəsilə keçirilir.
6.2.3. Tiraj digital lototron vasitəsilə kulice.az saytında təşkil olunur.

6.3. Əsas Tiraj
6.3.1. Əsas tiraj lotereya bitdikdən sonra keçirilir.
6.3.2. Bu tirajda lotereya müddəti ərzində qeydiyyatdan keçmiş bütün iştirakçılar iştirak edir.
6.3.3. Tiraj 10 sentyabr 2026-cı il tarixində canlı yayım vasitəsilə keçiriləcək.
6.3.4. Canlı yayım Kullice Instagram səhifəsi üzərindən təşkil olunacaq.
6.3.5. Əsas tiraj üzrə 3 qalib seçiləcək.

6.4. **İstisna Günlər**
6.4.1. Həftə sonları (şənbə və bazar günləri) və rəsmi dövlət bayram günlərində tirajlar keçirilmir.
6.4.2. Bu günlərə təsadüf edən gündəlik və ya həftəlik tirajlar növbəti iş günündə eyni qaydada keçirilir.

6.5. Qaliblər müəyyən olunduqdan sonra Lotereyanın Təşkilatçısı tərəfindən qazanan şəxsin qeydiyyatdan keçirildiyi mobil rabitə operatorunun abonent nömrəsinə telefon zəngi və elektron poçt vasitəsilə Lotereyanın qazanan İştirakçıya məlumat verilir.

6.6. Lotereyanın İştirakçısı Lotereyanın bütün dövrü ərzində eyni tipli 1 (bir) hədiyyədən artıq hədiyyə qazana bilməz. (yəni: pivə qazanan iştirakçı artıq pivə hədiyyəssi qaa bilməz lakin seabreeze və Maldiv üçün uduşlarda iştirak edə bilər.)

6.7. Lotereya qaliblərinin tam siyahısı (ad, soyad, ata adı, lotoreya iştirak kodu) 20 sentyabr 2026-ci il tarixdən gec olmamaqla (sonradan mətndə - "Lotereyanın keçirilməsinin nəticələrinin dərc olunduğu tarix") sosial media hesablarına yerləşdiriləcək.

## 7. Lotereyanın qaliblərinə hədiyyələrin verilməsi qaydası və müddəti

7.1 Lotereya qaliblərinin seçimindən sonra qaliblərin uduşları 10 (on) iş günü ərzində lotoreyada iştirak etdikləri mobil tətbiqdə qeyd olunan şəxsi mobil nömrə vasitəsi ilə əlaqə saxlanılacaq.

7.2 Hədiyyəni almaq üçün hədiyyəni qazanan Lotereya İştirakçısı "C141" , AZ1025, Bakı ş., Azərbaycan, Babək pr-ti, Əlǝddin Quliyev küç. 1131, Babək Plaza, ofis B6-06 ünvana hədiyyəni qəbul etmək üçün, uduş fondu oynanıldığı tarixdən etibarən 150 gün ərzində lotereya biletini təqdim edə bilər. Uduş lotereya təşkilatçısı tərəfindən uduşlu lotereya bileti qəbul edildiyi tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq verilməlidir.

## 8 Lotereyanın ümumi şərtləri

8.1 Hazırkı Qaydalarla www.kulice.az saytında tanış olmaq olar.

8.2 Qaliblərin yazılı razılığı ilə onlar haqında məlumat paylaşıla bilər.

8.3 Lotereyanın İştirakçısı geri götürmə haqqında imzalanmış yazılı bildirişi AZ1025, Bakı ş., Azərbaycan, Babək pr-ti, Əlǝddin Quliyev küç. 1131, Babək Plaza, ofis B6-06 ünvana göndərməklə, bildirişdə Lotereya İştirakçısının Lotereyada iştirak üçün öz qeydiyyat məlumatları sırasında bildirdiyi soyadını, adını, ata adını, doğulduğu tarixi və ünvanını qeyd etməklə öz razılığını geri götürə bilər.

8.4 Razılığın geri götürülməsi haqqında Bildirişi aldığı halda Lotereyanın Təşkilatçısı və onun müvəkkil şəxsləri belə Lotereya İştirakçısının fərdi məlumatlarının emalını dayandırır və onun fərdi məlumatlarını geri götürmə haqqında bildiriş daxil olduğu gündən etibarən ən gec beş iş günü ərzində məhv edir.